**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**Akademik H.Ə. ƏLİYEV adına COĞRAFİYA İNSTİTUTU**

*Əlyazması hüququnda*

**SEYİD SADİQ İBRAHİM OĞLU HÜSEYNİ**

# İRAN TURİZMİNDƏ BƏLƏDÇİLİK VƏ İNFORMASİYA TƏMİNATININ İQTİSADİ – COĞRAFİ MƏSƏLƏLƏRİ

İxtisas – 5401.01 – İqtisadi coğrafiya

Coğrafiya elmləri üzrə fəlsəfə doktoru alimlik dərəcəsi
almaq üçün təqdim olunan dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2013**

**Dissertasiya işi AMEA akad. H.Ə. Əliyev adına Coğrafiya İnstitutunun "İqtisadi və sosial coğrafiya" şöbəsində yerinə yetirilmişdir.**

**Elmi rəhbər** akademik **BUDAQOV B.Ə.**

**Rəsmi opponentlər**: coğrafiya elmləri doktoru, professor, Məmmədov Z.S.

Texnika elmləri üzrə fəlsəfə doktoru, Ağayev F.T.

**Aparıcı təşkilat:** BDU Xarici ölkələrin iqtisadi coğrafiyası və turizm kafedrası

Müdafiə "31 " may 2013-ci il saat $14^{oo}$-də Azərbaycan Milli Elmlər Akademiyası akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun nəzdində fəaliyyət göstərən D 01.091 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

*Ünvan: Az. 1143, Bakı, H.Cavid prospekti 31, Akademiyanın əsas binası, 8-ci mərtəbə, akademik H.Ə. Əliyev adına Coğrafiya İnstitutu.*

Dissertasiya ilə AMEA akademik H.Ə. Əliyev adına Coğrafiya İnstitutunun kitabxanasında tanış olmaq olar.

Möhürlə təsdiq olunmuş rəyləri iki nüsxədə bu ünvana göndərməyiniz xahiş olunur: Az. 1143, Bakı, H.Cavid prospekti 31, Akademiyanın əsas binası, 8-ci mərtəbə, akademik H.Ə. Əliyev adına Coğrafiya İnstitutu.

Avtoreferat "29 " aprel 2013-ci ildə göndərilmişdir.

**D01.091 Dissertasiya Şurasının**
**elmi katibi, coğrafiya**
**elmləri namizədi, dosent** **Həsənov M.S.**

**Mövzunun aktuallığı.** Hazırda bəzi ölkələrdə turizm təsərrüfatı iqtisadiyyatın ən dinamik inkişaf edən sahələrindən biridir. Təsərrüfatın bu sahəsini iqtisadi və mədəni inkişafın əsas mənbəyi hesab etmək olar. Xüsusilə, son illərdə turizm sahəsinin inkişafı aktual iqtisadi inkişaf planına çevrilmişdir. Turizmin inkişaf potensialı baxımından dünyanın əsas ölkələri sırasına daxil olan İran İR bu sahənin fəaliyyətinə görə əsas yer tuta bilər.

İran İslam Respublikasında turizm sahəsi təbii, tarixi-mədəni və s. baxımdan yüksək potensiala malikdir. Özünəməxsus coğrafi mövqeyi, əlverişli iqlim şəraiti, zəngin tarixi və mədəniyyət abidələri, müxtəlif adət-ənənələr, sosial-iqtisadi amillər turizmin inkişafına əlverişli şərait yaradır.

İran İR-da turizm sahəsi çox zəngin təbii coğrafi və tarixi-mədəni potensial imkanlarına malik olmasına baxmayaraq, bu potensialdan turizm təsərrüfatının inkişaf etdirilməsi üçün kifayət qədər tədqiqatlar yerinə yetirilməmişdir. Odur ki, dissertasiya işində İran İR-nın turizm sənayesində, tur bələdçiləri təminatının iqtisadi coğrafi problemlərinin elmi cəhətdən araşdırılmağı qarşıya məqsəd qoyulmuşdur.

Ölkəmizdə turizm sahəsinə davamlı olaraq xarici turistlərin cəlb edilməsi daim yeni texnologiya tətbiq etmədən inkişaf edə bilməz. Bu sahənin inkişafında turizm şirkəti rəhbərlərinin, səfər agentliyi işçilərinin, bələdçilərin, texniki idarəetmə işçilərinin, yaşayış yerlərində xidmət göstərənlərin və bu sahə ilə əlaqədar olan digər işçilərin hazırlıq səviyyəsinin yüksəldilməsi mühüm rol oynayır.

Turistlərin səfərləri zamanı tur bələdçiləri onlara informasiya verərək rahatlığını və rifahını təmin edən xidmətlər göstərir. Turistlər səfər etdikləri ölkəyə gəldikdə müxtəlif informasiyalara ehtiyac duyurlar. Səfər paketini agentliklərdən alan müsafirlər bələdçilərin xidmətindən istifadə etməklə informasiya əldə etməyin asan yolunu üstün tuturlar.

Turun yüksək səviyyədə həyata keçirilməsi bələdçinin elmi informasiya vermə qabiliyyəti və insanları idarəetmə bacarığından asılıdır. Bununla da ixtisaslı və bacarıqlı işçi qüvvəsindən istifadə etmək hədəf kimi nəzərdə tutulmalıdır.

İran turizm potensialı və abidələrini tanıtmaq, və onları turistlərə layiqincə təqdim etmək turizm sənayesinin inkişafı üçün olduqca zəruridir. Bu sahənin perspektiv gələcəyi və inkişaf imkanları tur bələdçilərinin davranış və vəzifələrini tədqiq edən bir işin aparılması zərurətini doğurur. Dissertasiyada turizmin inkişafında bələdçilərin

rolunu araşdırmaqla yanaşı, onların hazırlanmasına lazım olan texniki bilik və bacarıqlar, rabitə və informasiya texnologiyasının tur bələdçiliyindəki rolu, bu sahədə fəaliyyətin inkişaf perspektivləri, turizm təsərrüfatı inkişafının iqtisadi-coğrafi və sosial istiqamətdə tədqiq edilməsi, praktiki cəhətdən əsaslandırılması, dövlətin siyasətinə uyğunlaşdırılması, elmi-nəzəri cəhətdən təhlillərinin aparılması istiqamətləri bu işin aktuallığından irəli gəlir.

**Tədqiqat işinin obyekti.** İran İR-də turizmin inkişaf etdirilməsi üçün bələdçilik fəaliyyətinin sosial-iqtisadi və coğrafi məsələləri, bu sahədə kadr potensialının hazırlanması yollarıdır.

**Tədqiqat işinin predmeti.** İranın turizm təsərrüfatında bələdçilik fəaliyyətinin müasir vəziyyəti, bu sahədə kadr hazırlığı, onun ərazi təşkilinə təsir edən iqtisadi-coğrafi şəraitin tədqiqi, müasir və perspektiv sahələrin inkişaf istiqamətləri dissertasiya işinin predmetini təşkil edir.

**Problemin öyrənilməsi səviyyəsi.** İran İR-da Turizm təsərrüfatının inkişafı üçün və onun iqtisadi-coğrafi problemlərinə aid müəyyən səviyyədə tədqiqat işləri yerinə yetirilmişdir. İran İR-nın turizm sahəsini öyrənən alimlərin əsərlərində qismən olsa da tədqiq etdiyimiz tur bələdçi sahəsində iqtisadi-coğrafi aspektlərinə dair səthi məlumatlar mövcuddur.

Turizm təsərrüfatına daxil olan komplekslərin səmərəli ərazi təşkili istiqamətində İran İR-də Ə.Şəham, H.D.Fərahani, H.Zamani, Ə.M.Fərəczadə, Ç.R.Heydəri, M.Kazimi, M.M.Kərrubi, Z.M.Zahidi, M.Bilali, H.M.Zindədil, Azərbaycan, ABŞ və Qərbi Avropada Budaqov B.Ə. , Salmanov A.H., Soltanova H.B. , Dərgahov V.S. , Katlen Lingle Pond, G.E.Mitçel, F.Maykl. Kristine A.Peter, Mason D.Airey, S.Conson və b. alimlər tədqiqat işləri aparmışlar. Lakin bu tədqiqatlarda tur bələdçiləri və onların informasiya təminatının iqtisadi-coğrafi məsələləri kompleks bir problem kimi tədqiqat kontekstində araşdırılmamışdır. Bunu əsas götürərək İran İR-nın Turizm təsərrüfatına aid tur bələdçilərinin inkişaf istiqamətlərinə iqtisadi-coğrafi baxımdan tədqiqatın aparılmasına zərurət yaranmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin hazırlanmasında **məqsəd** ölkənin turizm təsərrüfatının inkişafı prosesində turistlərə xidmət göstərilməsinin bilavasitə iştirakçısı olan tur bələdçilərinin fəaliyyətinin elmi-nəzəri əsaslarını araşdırmaq, onun müasir və perspektiv inkişafını müəyyənləşdirmək, bu sahədə kadr hazırlığının təşkili, onların hazırlıq səviyyəsinin yüksəldilməsi yollarının müəyyən

edilməsi və təcrübi əhəmiyyətli təklif və tövsiyələr işləyib hazırlamaqdan ibarətdir.

Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün aşağıdakı **vəzifələrin** həll edilməsi nəzərdə tutulur:

- Ölkədə mövcud olan turizm potensialının səmərəli istifadə edilməsi, onlar haqqında informasiya-məlumat sistemlərinin yaradılması və tur bələdçiliyində onlardan istifadə edilməsinin zəruriliyini göstərmək;
- Tur bələdçilərinin fəaliyyətinin səmərəli təşkil edilməsi üçün yeni informasiya və kommunikasiya texnologiyasından istifadə edilməsinin zəruriliyini göstərmək, tur bələdçilərinin turizm mərkəzləri haqqında məlumatlar və onların çatdırılmasında texniki vasitələrlə təminatının vacibliyini öyrənmək;
- Turizm sahəsi üçün tur bələdçilərinin hazırlanması prosesində xüsusi təlim mərkəzlərinin yaradılmasının vacibliyini müəyyən etmək, onların regionlarda şəbəkəsinin təşkili, ali təhsil müəssisələrində bu sahədə ixtisaslı kadrların hazırlanması yollarının müəyyən edilməsi;
- Tur bələdçiləri hazırlanması prosesində Dövlət Proqramlarının əhəmiyyətinin təhlilinin aparılması, onların yerinə yetirilməsinin vacibliyini göstərmək, burada olan tədbirlərin həyata keçirilməsi üçün maliyyə vəsaitlərinin təmin edilməsi yollarının müəyyən edilməsi;
- Turizm sahəsinin inkişafında, turizm şirkətlərinin fəaliyyətinin mühüm tərkib hissəsi olan tur bələdçiliyinin təşkilində olan problemlərin müəyyən edilməsi, onların aradan qaldırılması yollarının elmi əsaslarının işlənib hazırlanması, inkişaf perspektivlərinin öyrənilməsi.

**Dissertasiyanın nəzəri və metodoloji əsasları.** Turizm təsərrüfatının inkişafı, onun maddi-texniki bazasının yaradılması, infrastrukturun səmərəli ərazi təşkili, bu sahədə işləmək üçün ixtisaslı kadrlar hazırlanması sahəsində tədqiqat işləri aparmış alimlərin əsərləri dissertasiyanın nəzəri-metodoloji əsaslarını təşkil edir. Turizm təsərrüfatının inkişafı üçün istifadə edilən relyef, geomorfoloji obyektlər, çaylar, mineral bulaqlar, göllər, dağlıq və dağətəyi ərazilər, tarixi-mədəni və arxeoloji abidələrin öyrənilməsinin böyük əhəmiyyəti vardır. Bu obyektlər haqqında araşdırmalardan dissertasiyada geniş istifadə edilmişdir. Eyni zamanda turizm sənayesi, bu sahədə informasiya

toplanması istiqamətində ABŞ, Qərbi Avropa ölkələrində və Azərbaycanda olan alimlərin əsərlərinin əhəmiyyəti çox olmuşdur.

Tədqiqat prosesində statistika, müqayisəli təhlil, ümumiləşdirmə, tarixilik, kartoqrafik, sistemli yanaşma, modelləşdirmə, çöl-tədqiqat, qruplaşdırma və s. üsullarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazasını** bu sahədə fəaliyyət göstərən şirkətlərin hesabatları, Turizm, Əl İşləri, Mədəni İrs Təşkilatının məlumatları, ostanların turizm sahəsində fəaliyyət haqqında hesabatları təşkil edir. Tədqiqat prosesində informasiya mənbəyi kimi turizm sahəsində olan qərarlar, qanunlar, normativ aktlar, sərəncamlar, onlarda olan müddəalar, Sosial, İqtisadi və Mədəni İnkişaf sahəsində Dövlət Proqramları informasiya bazası kimi istifadə edilmişdir.

Bununla yanaşı işin informasiya bazasını müəllifin apardığı çöl tədqiqat işinin nəticələri, uzun illər topladığı ilkin materialların təhlilləri əhatə edir.

**Tədqiqat işinin elmi yenilikləri** aşağıdakılardır:

- İlk dəfə olaraq ölkənin turizm təsərrüfatının inkişafı prosesində tur bələdçilərinin fəaliyyətinin inkişaf istiqamətləri tədqiqat obyekti kimi iqtisadi-coğrafi cəhətdən əsaslandırılır və təhlil olunur.
- Tur bələdçilərinin hazırlanması, onlardan istifadə edilməsi, işlə təminatı üçün ölkənin turizm potensialından istifadə edilməsi yolları, hər bir inzibati rayonlarda müqayisəli təhlili əsasında mövcud sosial-iqtisadi və coğrafi məsələlər aşkar edilmiş və onların perspektiv inkişaf istiqamətləri müəyyənləşdirilir ;
- Turistlərə xidmət göstərilməsinin əsas iştirakçıları olan tur bələdçilərinin lazımi informasiya, kommunikasiya texnologiyası ilə təmin edilməsinin əhəmiyyəti, bu sahədə coğrafi informasiyalardan istifadənin istiqamətləri müəyyən edilmişdir;
- Ölkənin sosial-iqtisadi İnkişaf Proqramlarında tur bələdçiliyinin səmərəli təşkili, bu sahədə kadr hazırlığı, onlardan istifadə edilməsi sahəsində olan problemlər öyrənilmişdir.

**Müdafiə olunan müddəalara** aiddir:

➢ Turizm təsərrüfatında tur bələdçilərindən istifadə edilməsinin əhəmiyyətli rolunun müəyyən edilməsi, turizm mərkəzləri və xidmətləri haqqında məlumatların turistlərə çatdırılmasında bu sahədə çalışanların gördüyü işlərin əhəmiyyətinin göstərilməsi;

➢ Tur bələdçilərinin fəaliyyətində coğrafi informasiya və kommunikasiya texnologiyasından istifadə edilməsi yollarının müəyyən edilməsi, onların hazırlıq səviyyəsinin yüksəldilməsi üçün təlim mərkəzlərinin rolunun artırılması yollarının öyrənilməsi;

➢ Tur bələdçilərindən istifadə edilməsinin sosial-iqtisadi və coğrafi cəhətdən kompleks şəkildə əsaslandırılması, onların istifadə sahələrinin inkişaf etdirilməsi və ölkə iqtisadiyyatı ilə onun uyğunlaşdırılması.

**Tədqiqatın praktiki əhəmiyyəti.** müəllif tərəfindən dissertasiya işində irəli sürülən təkliflər, tədqiqat zamanı əldə edilmiş elmi-praktiki nəticələr, turizm təsərrüfatında tur bələdçilərin fəaliyyətinin inkişaf etdirilməsində təlim mərkəzlərinin bu sahədə ixtisaslı kadrların hazırlanmasında əhəmiyyətli rol oynaya bilər. Dissertasiya işində ki, materiallardan gələcəkdə aparılan elmi- tədqiqat işlərində, təhsil müəssisələrinin tədris prosesində mühüm mənbə kimi istifadə edilə bilər.

Tur bələdçiliyi sahəsində kadrların hazırlanması üçün ali təhsil müəssisələri ilə yanaşı, müxtəlif şəhərlərdə yaradılmış təlim mərkəzlərinin də əhəmiyyəti

çoxdur. Burada dissertasiyada olan məlumatlardan istifadə edilməsi məqsədəuyğundur.

**Tədqiqat işinin aprobasiyası.** İranda turizm sahəsinin inkişafı, bu sahədə fəaliyyət göstərən şirkətlərin fəaliyyətinin genişləndirilməsi, tur bələdçilərinin əməyindən istifadə sahəsində aparılmış tədqiqatların əsas nəticələri, bu sahədə əldə edilmiş əsas müddəalar İranda, Azərbaycanda, Türkiyədə və Yaponiyada keçirilmiş konfrans, qurultay və simpoziumlarda dinlənilmişdir:

“Qloballaşma və beynəlxalq təlim” konfransı. Tehran, 2- 3 Oktyabr 2012-ci il; Nir rayonunun sağlamlıq turizm potensialları, proqramlar və yollar, Təbriz 27 - 28 İyul 2011-ci il; İnsan resurslarının təliminin sağlamlıq turizm xidmətləri keyfiyyətinin yaxşılaşdırılmasındakı rolu. Təbriz 27 - 28 İyul 2011-ci il; “Qloballaşma və coğrafiya” konfransı, Bakı, 2012-ci il; “İran İslam Respublikasında Turizmin İnkişafına” dair Seminar, Yaponiya 4 - 8 Dekabr, 2006-ci il.

**Dissertasiya işinin quruluşu.** Dissertasiya işi 149 səhifədir. Tədqiqat işi Giriş, 3 fəsil, nəticələr və təkliflər, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiya işində 10 cədvəl, 5 xəritə-sxem, 7 şəkil verilmişdir. Ədəbiyyat siyahısında 131 mənbə vardır.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı əsaslandırılır, dissertasiya işinin obyekti, predmeti, məqsəd və vəzifələr müəyyən olunur, onun nəzəri-metodoloji əsasları, elmi yenilikləri və praktiki əhəmiyyəti göstərilir.

Dissertasiyanın birinci fəsli "**Turizm sənayesində bələdçi təminatının nəzəri-metodoloji əsaslarının**" öyrənilməsinə həsr edilmişdir. Burada əvvəlcə "**Turizm sənayesində tur bələdçiliyi fəaliyyətinin nəzəri və metodoloji əsaslarının**" təhlili aparılır. Turizm təsərrüfatı bir sıra özünəməxsus xüsusiyyətlərə məxsusdur. Çünki tələb və təklif tamamilə ayrı-ayrı ərazilərdə yerləşir. Turizm xidməti göstərənlər çalışırlar ki, turistləri başlanğıc məntəqədən turizm mərkəzlərinə apararaq lazımi informasiya versinlər və layiqli bələdçilik etməklə onlarda unudulmaz bir səfər xatirəsi yaratsınlar. Bələdçilərin fərdi xüsusiyyətləri və peşəkarlığı, onların işini yerinə yetirmə mexanizmləri, turizm məqsədlərinin rolu, turizm agentlikləri və təşkilatlarına rəhbərlik edənlər (infrastruktur sahəsi nəzərdə tutulur), bu iş üçün insan kapitalının yetişdirilməsi (peşəkar bələdçilərin hazırlanması nəzərdə tutulur) müəyyən bir məqsədlərə çatmaq üçün təhlil apardığımız istiqamətlərə aiddir.

Birinci fəsildə təhlili aparılan məsələlərdən biri də **"Bələdçilərin işləri ilə əlaqədar qurumlar və onların təşkilat strukturunun"** təhlilidir**.** Dissertasiya işində göstərilir ki, müasir dövrün iqtisadi inkişafının aktual mövzularından biri turizm təsərrüfatının inkişaf konsepsiyasıdır. Bu konsepsiyaya görə turizm təsərrüfatının fəaliyyətinin xidmətdən ibarət olması və bu xidmətlərin işçilər tərəfindən göstərilməsinə görə işçilərin təlimi onun inkişafına zəmanət verən əsas amillərdən biridir.

Ölkələr turizm sahəsində əməkdaşlıq edir, bu peşənin standartlarını və lazım olan bacarıqları inkişaf etdirmək üçün uyğun siyasət planlaşdırmağa çalışırlar. Bu sənayedə insan qüvvəsinin, xüsusilə bələdçilərin təlimi və hazırlanması əhəmiyyətli olduğuna görə dövlət qurumları, qeyri-dövlət təşkilatları beynəlxalq, milli və yerli səviyyədə olan ittifaqlar, birliklər bələdçilik və onların təlimləri ilə əlaqədar işləri öz üzərinə götürür. Dissertasiyada müxtəlif ölkələrdə turizm sənayesinin inkişafı, o cümlədən tur bələdçiləri hazırlanması sahəsində həyata keçirilən tədbirlər təhlil olunur. Göstərilir ki, Fransada turizm təşkilatlarında çalışmaq üçün kadr hazırlayan özəl təlim ocaqları vardır. Dövlət özü də turizm sənayesini kadrlarla təmin etmək üçün təlim

kursları təşkil edir, könüllülərdən tələb olunan şərtlərə və şəraitə malik olanları seçir. ABŞ və Hollandiya kimi bəzi ölkələrdə isə dövlət turizm işinə qarışmır, bu sahəyə aid olan işlərin çoxunu özəlləşmiş şirkətlər həyata keçirir, dövlət yalnız nəzarət funksiyasını yerinə yetirir. İnkişaf etməkdə olan ölkələrdə müxtəlif sahələrdə, xüsusilə mehmanxana təsərrüfatı sahəsində mütəxəssis kadrların olması zəruridir. Yüzlərlə işçiyə təlim vermək üçün onları turizm sahəsi inkişaf edən ölkələrə ezamiyyətə göndərmək olmaz. Buna görə də turizm və mehmanxana sahələrinə aid ali təhsil ocaqlarının zəruriliyi daha çox hiss olunur.

Dissertasiya işində turizm sahəsində çalışan işçi qüvvəsinin təlimi, xüsusilə dil təlimi üçün plan və proqramların hazırlanmasında dövlətin rolunu təhlil etmək üçün xarici ölkə alimlərinin tədqiqatlarından və bu ölkələrin Milli Turizm Planından metodoloji əsas kimi istifadə olunmuşdur.

Dissertasiyada **"Tur bələdçiliyində yeni informasiya və kommunikasiya texnologiyasından istifadənin**" öyrənilməsinə geniş yer verilir. Dünyanın bütün ölkələrində və təsərrüfat sahələrində bu imkanlardan, müasir texnologiyanın xidmətlərindən istifadə edilir. Turizm sahəsinin müxtəlif sahələri də bu texnologiyadan xeyli faydalanır. Yeni texnologiya turizm sahəsinə aşağıdakı istiqamətlərdə öz müsbət təsirini göstərir: turizm sahəsi məhsullarına xərclər azalır, xidmətlərin maya dəyəri aşağı düşür; daha çox insanlara səfər imkanı yaranır; turizm məhsullarından, o cümlədən nəqliyyat, yaşayış yeri və gəzinti xidmətlərindən yararlanma təminatı artır; xidmətlərin keyfiyyətcə yaxşılaşması və müştərilərin razılığı mümkün olur.

Yeni texnologiyanın bələdçilik sektorunda istifadəsi zamanı informasiyanın əldə edilməsi, istifadəsi və saxlaması asanlaşır, bələdçinin iş fəaliyyətinə texnologiyanın təsiri yüksəlir, onlar öz vəzifələrini yerinə yetirərkən çoxlu alət və cihazlardan (GPS, GİS, modern audio sistemləri) istifadə edirlər. Bu da onların iş təhlükəsizliyini təmin edir, göstərdiyi xidmətlərin keyfiyyətini yaxşılaşdırır. Elektron bələdçi sistemi son illərdə meydana çıxmışdır. Həmin sistemdən istifadə ABŞ-ın Yellouston milli parkında uğurla sınaqdan çıxmışdır. İnformasiya daşınma qabiliyyətinə malik olan bir kompüterdə məlumatlar audio-video faylı şəklində onun yaddaşına verilir. Turistlər həm onun filminə baxır, həm də lazım olan məlumat və informasiyaları əldə edirlər. Deməli, informasiya texnologiyasının müxtəlif ixtisas və peşə sahələrinin inkişafında olan rolunu nəzərə alaraq turistlərə bələdçilik

etmək, onlara informasiya vermək və razılıqlarını qazanmaq üçün elektron-təlim modellərindən istifadə edərək bələdçilərin bilik səviyyəsini yüksəltmək olar.

Dissertasiyanın ikinci fəsli "**Tur bələdçiləri hazırlığının müasir vəziyyəti**" adlanır. Burada "**Turizm sahəsinin inkişafında təbii-coğrafi və tarixi-mədəni amillərin əhəmiyyəti**" mühüm yer tutur. Bu fəslidə İran İR-in coğrafi mövqeyi və təbii-coğrafi şəraiti və ölkənin coğrafi mövqeyinin turizm sahənin inkişafında əhəmiyyəti təhlil olunur. İran İslam Respublikası Asiyanın cənub-qərbində yerləşir. Ölkə şimalda Türkmənistan, Azərbaycan və Ermənistan Respublikaları ilə, şərqdə Əfqanıstan və Pakistan Respublikaları ilə, qərbdə Türkiyə və İraq Respublikaları arasında yerləşir. Ölkənin cənub sərhəddi isə Fars və Oman körfəzlərinin sular ilə yuyulur. İran İR-in sahəsi 1648195 $km^2$, əhalisinin sayı 75,0 mln. nəfərdir (2011).

Təbii-coğrafi amillərin turizmin inkişafı məqsədilə qiymətləndirilməsi vacib məsələlərdən biridir. Turizm sənayesi İranda böyük təbii-coğrafi, tarixi və mədəni ehtiyatlara malikdir. Yerli ehtiyatların çoxluğu və müxtəlif çeşidliliyi bu sahənin neft sənayesini əvəz edə bilən bir sənayeyə çevrilməsinə imkan yarada bilər. Təmiz sulu mineral bulaqlar, Elburs dağlarının və Xəzərin sahillərinin sıx meşələri, Zaqros sıra dağları, Səhənd və Savalan dağları, onların vaxtı ilə od püskürmüş və artıq qarla örtülmüş zirvələri turistlərin xatirəsinə çevriləcək mənzərələrdir.

İranın ərazisinin çox hissəsində insanların həyatının müxtəlif dövrlərinə aid olan tarixi abidələr, ardıcıl sosial-mədəni fəaliyyət izləri, göllər və digər sahil zonalarına aid təbii görüntülər turistlərdə maraq oyanmasına zəmin yaradır. Ən mühüm yaşayış mərkəzlərindən Kaşanda Siyəlk təpəsi, Damqanda Hasar təpəsi, Gürganda Toranq təpəsi, Azərbaycanda Həsənli təpəsi, Rudbarda Marlik təpəsi, Xuzistanda Şuş yaşayış məntəqələrinin adlarını çəkmək olar.

Təhlillər göstərir ki, son illərdə ölkənin gəlir mənbələrini çoxtərəfli etmək və neftə əsaslanan təksahəli iqtisadiyyat strukturunu aradan qaldırmaq üçün dövlət səviyyəsində siyasət aparılsa da hələlik neft sənayesi əsas gəlir mənbəyi olaraq qalmaqdadır. Turizm sənayesi ölkənin böyük təbii, tarixi və mədəni potensialından istifadə əsasında inkişaf etdirilə bilər. Dövlətin iqtisadi inkişafını planlaşdıran orqanlar üçün belə vəziyyət əlverişli şərait yaratmışdır. Buna görə də gələcək inkişaf proqramlarının qəbul edilməsi və perspektiv layihələrin həyata

keçirilməsində turizm sahəsinin xüsusi yeri olmalıdır. Turizm birbaşa və dolayı gəlirlər yaratmaq, gənclərə və digər işsizlərə iş yerləri yaratmaq, dövlətin sosial ədalət konsepsiyasının həyata keçirilməsi yolu ilə iqtisadi inkişafa təminat yaratmaq imkanlarına malikdir. Ona görə bu sahənin davamlı inkişafı təmin edilməlidir.

Təbii, tarixi və mədəni mərkəzlərinin ölkə üzrə qeyri-bərabər yayılmasına baxmayaraq daxili və xarici turistlərə xidmətlə əlaqədar məşğulluq da qeyri-bərabər paylanır. Bundan asılı olaraq iş yerlərinin paylanması yaşayış məkanlarına uyğun deyildir. Turizmdən əldə edilən gəlirlərdən yalnız müəyyən qrup şəhərlər yararlanır. Halbuki, ölkənin turizm potensialının böyük hissəsi tanınmamış olaraq qalmışdır. Turistlərin 9,0%-i ölkənin cəmi üç şəhərində, - Tehranda, İsfahanda və Şirazda olan mərkəzlərdə görüş keçirirlər. Analoqu olmayan turizm mərkəzləri və şəhərlər, hətta YUNESKO-da qeydə alınan digər şəhərlərdəki abidələr turistlərin 1,0%-nin görüş proqramına daxil edilmir. Bu və ya digər səbəblərdən, xüsusilə informasiya və təbliğatın zəifliyindən irəli gələn belə bir vəziyyət İranda bu təsərrüfat sahəsinin qeyri- daimi və zəif inkişafına gətirib çıxarmışdır.

Deməli, tur bələdçilərinin fəaliyyəti, turistlərə xidmət etmək, təbii və tarixi abidələri onlara təqdim etmək gəlirlərin paylanmasına, yoxsulluğun azalmasına, sosial rifahın artmasına səbəb olmaqla sosial ədalət prinsipinin reallığa çevrilməsinə gətirib çıxaracaqdır.

Dissertasiya işində **“Turizm sahəsində tur bələdçilərinin hazırlanması və “onların hazırlığının müasir vəziyyətinə”** təsir göstərən təbii-coğrafi və tarixi-mədəni amillər, onların işləri ilə dövlət və qeyri-dövlət qurumları təhlil olunur. Burada Mədəni Sərvətlər, Əl İşləri və Turizm Təşkilatı daha çox fərqlənir. Bu təşkilat turizm işlərini planlaşdıran, ona istiqamət verən və fəaliyyətinə nəzarət edən yeganə rəsmi dövlət qurumudur. Təşkilatın sədri İran İR Prezidentinin müavini səviyyəsindədir, onun birbaşa fərmanı ilə təyin edilir.

Tur bələdçilərinin təlim proqramları təşkilatın Təlim Planları Bürosu tərəfindən hazırlanır. Bölmə Mədəni Sərvətlər, Əl İşləri və Turizm Təşkilatının bələdçilərin təlimi ilə əlaqədar ixtisaslaşmışdır. Təlim Planları Bürosunun vəzifə və öhdəliklərinə təlim kursları təşkil etmək, dövlət qurumlarının bilik səviyyəsini yüksəltmək, təlim kurslarının təşkili və ona nəzarət etməkdir.

Tur bələdçilərinin turizm sənayesinin inkişafında oynadığı rolu nəzərə alaraq təlim planlaşdırma bürosu bələdçi hazırlamaq üçün qısa müddətli təlim planları hazırlamış və rəsmi lisenziyaya malik olan etibarlı təlim müəssisələri vasitəsilə həyata keçirmişdir və keçirir. Son illərdə özəl sektorda azad təlim müəssisələrinin sayı çoxalır (xəritə-sxem 1). Onlar tələblərin çoxalması nəticəsində tur peşəsinin tərəfdarları üçün təlim kursları təşkil edir.

**Ali təlim kurslarının turizm sənayesində əhəmiyyəti böyükdür.** Ölkəmizin ali təlim sistemi də keçən onillik ərzində turizm sənayesinə, turizm və mehmanxana təsərrüfatı ixtisaslarının inkişafına daha çox diqqət yönəltmişdir. Bunun nəticəsi olaraq bu və ya digər sahələrdə texnikum, bakalavr və namizədlik səviyyələrində təhsil sahələri yaradılmışdır. Texnikum kurslarından turizm xidmətləri kursu tur bələdçiliyi ilə əlaqədar təlimlərə daha yaxındır.

# İran İR-də turizm-təlim mərkəzlərinin yerləşməsi




Xəritə-sxem 1.İran İR-də turizm-təlim mərkəzlərinin yerləşməsi

Tur bələdçilərinin daim statistik göstəriciləri qeydə alınır. Mədəni Sərvətlər, Əl İşləri və Turizm Təşkilatı müavininin məlumatına görə İranda təqribən 3800 nəfər tur bələdçiliyi kursunu keçmiş və bələdçilik bileti almışdır (xəritə-sxem 2).

Bu fəslidə İran tur bələdçilərinin vilayətlər, xarici dil, cins, təhsil, fəaliyyət sahəsi (daxili, xarici və ekoturizm) və fəaliyyət tarixi baxımından göstərici diaqramlarını vermişdir. Sonra onların milli və regional səviyyədə təşkilatlarının fəaliyyəti araşdırılmışdır.

Turizm sektorunda çalışan işçi qüvvəsi arasında tur bələdçiləri turistlərin maddi və mənəvi tələbatının təmin edilməsində, sahənin idarə edilməsində aparıcı rol oynayırlar. Bu insanların bacarığı və peşəkarlığı ölkənin turizm sənayesinin inkişafına imkan verir. Son illərdə digər sosial-iqtisadi sahələrlə rəqabət apara bilən turizm sahəsinin inkişafı məqsədi ilə bu sahənin inkişafına qısa və orta müddətli İnkişaf Proqramlarında xüsusi yer verilmişdir.

Yuxarıda deyilən mövzuların araşdırılması ilə yanaşı İran turizm bələdçilərinin təlim kurslarının mövcud vəziyyəti də tədqiqata cəlb edilmişdir. Bu tədqiqatı aparmaq və mövcud təlim prosesinin və tur bələdçilərinin yetirilməsinin müxtəlif cəhətlərini araşdırmaq məqsədilə suallar irəli sürülmüşdür.




Xəritə-sxem 2. İranda tur bələdçiləri təşkilatlarının yerləşməsi

Dissertasiyada **Tur bələdçilərinin hazırlanması üzrə İnkişaf Proqramları** öyrənilməsinə geniş yer verilir. 2000-2004-cü illər arasında ölkədə "Turizmin İnkişafı üzrə Milli Proqramın" hazırlanması dövlət tərəfindən edilən elmi və praktiki bir təşəbbüsdür. Turizm İnkişafı üzrə Milli Proqram Ali Turizm Şurasının dəstəyi, BMT İnkişaf Proqramı (UNDP) və Ümumdünya Turizm Təşkilatının (UNWTO) himayəsi ilə hazırlanmışdır. Proqramın hazırlanmasında bir qrup beynəlxalq mütəxəssislər, İranın Turizm Təşkilatı, digər milli, regional səviyyəli mütəxəssislərdən istifadə olunmuşdur.

Turizm İnkişafı Milli Proqramın müəyyən etdiyi dövr ərzində insan qüvvəsi tələbatının böyük hissəsi iki sektora, yaşayış yerlərinə, restoranlara, xüsusilə mehmanxana sektorlarına aiddir. Əlbəttə, digər iki sektorun, səfər agentlikləri və bələdçilik sektorlarının da diqqətəlayiq dərəcədə genişlənməsi gözlənilir.

İran İslam Respublikasının turizm sənayesinə dair İnkişaf Proqramları ilə tanış olmaq üçün I, II, III, IV sosial, iqtisadi və mədəni İnkişaf Proqramlarında, eləcə də ölkənin 20 illik perspektivləri sənədində milli planlaşdırma prosesi, turizmin buradakı yerini öyrənmək, turizm sektorunun insan resursları və təlim-tərbiyə işlərinin təhlili aparılır.

Turizm sahəsində İnkişaf Proqramlarının məqsədlərini nəzərə alaraq belə görünür ki, insan ehtiyatlarının təhsilinin inkişafı, idarə edilməsinin yaxşılaşdırılması və işçi qüvvəsinin ixtisas səviyyəsinin qaldırılması turizm sahəsinin fəaliyyətində xüsusi əhəmiyyətə malik olmuşdur. Beynəlxalq standartlar səviyyəsində turistlərə xidmət göstərmək, onlara ölkənin tarixi, təbii turizm mərkəzləri, İranın islam sivilizasiyası və mədəniyyətini tanıtmaq üçün əlverişli işçi qüvvəsinin təliminə, xüsusilə tur bələdçiləri sahəsində ehtiyacımız vardır.

Təcrübəli, peşəkar bələdçilər hazırlamaq, turistlərə düzgün və etibarlı məlumat vermək üçün həm dövlət, həm də özəl sektorda elmi təşkilat lazımdır. Elə bir quruluş lazımdır ki, ona əsasən bələdçilər nəzəri və praktiki təlim görsün, turistlərə lazım olan məlumat və informasiyanı etimadlı yerdən əldə edib lazımi xidmətləri göstərə bilsin. Bu məqsədə çatmaq, ölkənin müxtəlif sahələrdəki sərvət və imkanları turistlərə təqdim etmək üçün bələdçi hazırlayan elmi-işgüzar mərkəzlər lazımdır. Başqa sözlə, altqurumların, əmtəə və məhsulların inkişafı, turizm bazarlarının genişlənməsi üçün mövcud potensial imkanlar haqqında aydın konsepsiya olmalı, düzgün informasiyanın təmin edilməsi, mərkəzlərdə turistlərə düzgün bələdçilik etmək lazımdır.

Dissertasiyanın üçüncü fəslində **“Turizm sahəsində bələdçilik işinin perspektiv inkişaf istiqamətləri”** müəyyən olunur. Burada ilk növbədə “**Bələdçilik işinin təşkili üçün təbii, maddi-texniki və texnoloji potensial imkanlar**” öyrənilir. Uzun illərdən bəri ölkədə iqtisadiyyatın monostruktur istiqamətinin aradan qaldırılması üçün tədbirlər görülməsinə baxmayaraq hələlik nəticələr azdır. Hazırda ölkədə yerinə yetirilən 20 illik İnkişaf Perspektivi sənədlərində göstərilir ki, dünyanın turizm gəlirlərində İranın payına düşən gəlirləri 25 milyard dollara çatdırmaq olar. Proqramın yerinə yetirilməsinin sonunadək 20 milyon turistin ölkəyə gəlməsi ilə dünya turizmində ölkəmizin payı 2003-cü ildə 0,07%-dən 2026-cı ildə 2,0%-dək arta bilər. Ölkəyə gələn hər bir turistə görə 4-10 iş yeri açıla bilər. Hər turistə göstərilən xidmət və istehsal bölmələrində işlərin nəzərə alması ilə iş yerlərinin yaradılması 15-18 nəfərə çatır. Ölkənin turizminin inkişafında proqnoz xarakterli proqramların həyata keçirilməsi ilə bu imkanları potensialdan reallığa çevirmək nəzərdə tutulur.

Bələdçilər turizmin problemlərinin həllində əsaslı rol oynaya bilərlər. Tur bələdçiləri bu sahənin inkişafında, xarici turistlərin ölkəyə cəlb edilməsində və ölkənin turizm potensialının təbliğ edilməsində əhəmiyyətli rol oynayırlar.

Hər bir ölkədə turizmin güclü cəhətlərindən biri onun mərkəzlərinin təbliği və tanıdılmasıdır. Bu iş ixtisaslaşmış şəkildə olmalı, kadrlar tərəfindən aparılmalıdır. Ölkə, onun bir şəhərində turistlərin düzgün qəbul edilməsində hazırlıq mərhələləri vardır. Münasib və eyni zamanda ucuz yaşayış yerlərinin olması, yerli və xarici sərnişinlərə əla xidmətlərin göstərilməsi, xüsusi təlimlərə ehtiyacı olan turistlərlə davranış qaydaları və reklam xarakterli olmayan düzgün məlumatın verilməsi vacib amillərdir.

İranın dünyada ekoturizm və təbii turizm mərkəzləri sahəsində dünyada beşinci yerdə, arxeoloji və tarixi abidələr sahəsində onuncu yerdə olduğunu nəzərə alaraq, habelə 20 illik perspektiv sənədinin sonu ilə üst-üstə düşən VII İnkişaf Proqramının sonundakı proqnozlara əsasən, iyirmi milyon nəfər turistin gəlişi ilə, İran iyirmi milyard dollar illik valyuta gəlirinə nail olmalıdır. Bu hədəflər uzun müddətli və ümumi hədəflər kimi milli turizmin inkişafının sənədi olaraq qəbul edilmişdir. Burada göstərilir ki, İranın maraqlı turizm sahəsi, müxtəlif məhsulları, sahmana salınmış bazarları, standartlaşmış xidmət sahələri vardır.

Bu fəslində SWOT metodundan istifadə edərkən İranın bir turizm mərkəzi kimi təhlili onun bir sıra rəqabət imkanlarına malik olduğunun göstəricisidir.

İranın turizm potensialından səmərəli istifadə edilməsinə özəl sektorun turizm sahəsində iştirakının aşağı səviyyəsi, turizm sektorunda idarəetmənin həllində uğursuzluq, zəlzələ, sel və quraqlıq kimi təbii fəlakətlərdən irəli gələn nəticələr, İranla qonşu ölkələr arasında siyasi-iqtisadi münaqişələrin baş verməsi və regiondakı münaqişələr mənfi təsir göstərir.

**"Bələdçilik işlərinin inkişafında olan problemlərin"** həll edilməsi turizmin inkişafına imkan verər. Ölkəmizdə mədəni və ekoturizm üzrə tur bələdçiləri tam peşəkar deyildir. Bu turizm agentliklərində ixtisas-peşəkar işə bələd olmayan təlim görmüş insanların çox olmasına baxmayaraq, bu sahədə də işsizlik ən böyük çətinliklərdən biridir.

Ölkəmizdə bu sənayenin ən həssas seqmenti turizm bələdçiləridir. Bunun üçün bələdçilərin əksəriyyəti bu işə (peşənin vurğunları belə) ikinci iş kimi yanaşırlar. Mədəni Sərvətlər, Əl İşləri və Turizm Təşkilatından lisenziya alan bu mütəxəssislərin çoxu düzgün bir turun keçirilməsi ilə səyahət mədəniyyətini yüksəldə bilərlər. Ona tabe olan şirkətlər həmin təşkilatdan vəsiqə alan şəxslərdən istifadə etməyə məcbur edə bilər. İran İR-də fəaliyyət göstərən bələdçilər çoxsaylı problemlərlə qarşılaşır. Ölkəmizin tur bələdçilərinin iş təhlükəsizliyi yoxdur. Bələdçilik vəsiqəsi olan dörd min nəfər tur bələdçisindən yalnız 300 nəfəri turçuluq işi ilə məşğuldur. Beynəlxalq Tur Bələdçiləri Federasiyasına üzv olduqdan sonra ilk dəfə ölkəmizdə digər dünya ölkələri ilə eyni vaxtda dünya bələdçiləri gününə həsr olmuş proqram nəzərdə tutulmuşdur.

**İranda Tur Bələdçiləri Cəmiyyətinin inkişaf problemləri.** Təlim görmüş turizm bələdçilərinin işsizliyini aradan qaldırmaq üçün xüsusi proqramlar hazırlamaqla onlardan aşağıdakı hallarda istifadə etmək olar. Turizm məlumatlandırma mərkəzləri və səfər agentliklərində turizm bələdçilərindən istifadə etmək, xaricdə Mədəni Sərvətlər, Əl İşləri və Turizm Təşkilatının agentliyini yaratmaq, qarşılıqlı əlaqə yaratmaq, ölkənin turizm imkanlarını tanıtmaq üçün tur bələdçilərindən həmin agentliklərdə istifadə etmək, muzeylərdə, tarixi-turist mərkəzlərində, milli, beynəlxalq turizm sərgilərində, konfranslarda, seminarlarda, tələbə turlarında daxili turizmin inkişafı bələdçilər üçün iş şəraiti yaratmaq strategiyasından biridir. Bələdçilərin yerli və xarici turizm bölgələri ilə

tanışlıq turlarının keçirilməsi üçün şərait yaradılması, habelə bu turların digər ölkələrdən İrana və əks istiqamətdə təşkil olunması, 20 milyon turistin cəlb edilməsi, müəyyən edilmiş perspektivin həyata keçirilməsi üçün tur bələdçilərinin məlumatının artırılması, yeni informasiyaların toplanmasına çalışmaq lazımdır.

**Bələdçilərin təliminin inkişaf perspektivləri.** Yerli və xarici turistlərin dünyagörüşünün zənginliyi, mənəvi və maddi ehtiyaclarının təmin olunması, onlara turizm mərkəzləri haqqında məlumat verilməsində tur bələdçilərinin rolunu, habelə ölkə ziyarətçilərinin çoxunun aldığı təəssüratın bələdçilərinin davranışının müşahidəsi əsasında olmasını nəzərə alsaq belə çıxır ki, bu işçilərin bacarıqları turizmin ümumi məhsulunun keyfiyyətində çoxlu təsirə və nüfuza malikdir.

Mədəni Sərvətlər, Əl İşləri və Turizm Təşkilatı yenilənmiş bir təlim proqramının hazırlanması üçün baş bələdçilər və səyahət agentliklərindən ibarət bir qrup təyin etməlidir. Qeyri-ingilis xarici dillərlə tanış olan tur bələdçilərinin az olması probleminin həlli üçün Mədəni Sərvətlər, Əl İşləri və Turizm Təşkilatı Çin, Yaponiya və Koreya dil kurslarının keçirilməsi üçün Elmlər, Tədqiqat və Texnologiya Nazirliyinin razılığını əldə etmək məqsədilə universitetlərin xarici dillər fakültələrinə yardım göstərməlidir.

Turizm sənayesində insan potensialının inkişafı sahəsində strategiya qəbul edilmişdir. Qısa müddətli strategiya 2002-2005-ci illəri əhatə edir. Turizm şöbələri və təşkilatlarında insan potensialının inkişaf mədəniyyəti ilə tanış olan direktorlar və peşəkar mütəxəssislərin tərbiyə edilməsi üçün çox vaxta ehtiyac olduğu üçün, turizm milli proqramının icrasının ilk 5 ilində “Qabaqcıl” proqramlardan istifadə etmək lazım gəlir.

Orta və uzun müddətli strategiya 2006-2015-ci illəri əhatə edir. Bu illərdə insan potensialının inkişafını təmin etmək məqsədilə konkret tədbirlərin həyata keçirilməsi təklif olunur.

Turizm sahəsində insan resursları inkişafı və turizm inkişaf proqramları hədəflərinə nail olmaq üçün məktəblərdən universitetədək bir rəsmi turizm təlimi sisteminə ehtiyacımız var. Mədəni Sərvətlər, Əlişləri Və Turizm Təşkilatının Texniki Peşə Təşkilatı, Təhsil Və Tərbiyə Təşkilatı, Elmi - Funksional Universiteti və digər universitet mərkəzləri ilə əməkdaşlığı bu təlim sisteminin yaradılmasında zəruridir (şəkil.).




Şəkil. Rəsmi turizm təlimi sisteminin yaradılması

Ölkə inkişafının uzun müddətli perspektiv hədəflərinin reallaşması və uyğun siyasət və dəqiq və ümumi planlaşdırmaya uyğun olaraq və turizm sənayesinin işsizlik probleminin həlli və ölkənin stabil inkişafındakı yeri və rolunu nəzərə alaraq, beynəlxalq və milli, regional və yerli əhəmiyyətli təlim proyektləri, layihələri və strategiyalarını hazırlayıb həyata keçirmək olar.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

İran İR-də turizm sənayesinin inkişafında xüsusi əhəmiyyət kəsb edən tur bələdçiliyinin yaradılması, bu sahədə çalışanların fəaliyyətinin səmərəli təşkili yollarının tədqiqi əsasında aşağıdakı nəticələr əldə edilmişdir:

1.Hazırda insanların ətraf ərazilər haqqında məlumatının genişlənməsi, dünya görüşünün yüksəlməsi, turizm sənayesinin xidmətlərindən istifadə edənlərin sayının artması, bu sahədə fəaliyyət göstərən şirkətlərin sayının çoxalması və xidmət növlərinin genişlənməsi ilə əlaqədar tur bələdçilərinin ixtisaslaşması səviyyəsinin yüksəldilməsi və ixtisaslaşması tələb edilir. Hazırda təbiəti seyr etmək, mədəni, sosial, tarixi istiqamətlərdə turlar üstünlük təşkil edir. Onlara rəhbərlik üçün xüsusi hazırlığı olan tur bələdçilərinin hazırlanması tələb olunur.

2.Müasir dövrdə İnformasiya və Kommunikasiya Texnologiyasının inkişafı bu sahədə göstərilən xidmətlərin yüksək səviyyədə təşkilinə, onun daha geniş əhali təbəqəsini əhatə etməsinə, turistlərə yüksək səviyyədə və əhatəli informasiyalar verilməsinə şərait yaradır. Bələdçilərin texniki vasitələrlə təmin edilməsi onların fəaliyyətinin səmərəli təşkilinə, keyfiyyətinin yüksəldilməsinə müsbət təsir göstərmişdir.

3. İran kimi böyük bir ölkənin hər yerində turizm ehtiyatların çoxluğu və müxtəlif çeşidliliyi bu sahənin neft sənayesini əvəz edə bilən bir təsərrüfat sahəsinə çevrilməsinə imkan yarada bilər. Bilavasitə və dolayı gəlirlər, yeni iş yerləri yaratmaq, sosial xidmət və imkanları düzgün yerləşdirmək yolu ilə sosial-iqtisadi inkişafa nail olmaq mümkündür.

4.Ölkənin turizm sənayesində bələdçilik işlərinin fəaliyyət göstərməsi, kadrların seçilməsində bir sıra problemlər vardır. Bu problemlərin aradan qaldırılması üçün şirkətlərdə çalışan işçilərin qəbuluna nəzarətin gücləndirilməsi, onların işə qəbulu zamanı ixtisas-peşə və hazırlıq səviyyəsinin nəzərə alınması zəruridir.

5. Beynəlxalq və milli səviyyədə turizmlə əlaqədar sahələrin inkişafı üçün ölkə universitetlərində turizm fakültələrinin yaradılması vacibdir. Tur bələdçilərinin daxili və xarici turistlərin tələbatının təmin edilməsindəki rolu, turizm sənayesi bələdçilik elminin universitet səviyyəsində tədris olunması zəruriliyini nəzərə alaraq birinci fazada turizm fakültəsinin yaradılması zəruriliyi meydana çıxır.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1.Hüseyni S.S. İranin Turizm sənayesində bələdçi informasiyasının inkişafına təsir göstərən sosial və iqtisadi amillər, XXI Əsrin Ekocoğrafi Çağırışları və Azərbaycan, Məqalələr Toplusu, Bakı Dövlət Universiteti, (2011) səh. 298-306.

2.Hüseyni S.S. Yeni informasiya və kommunikasiya texnologiyalarının tur bələdçiliyindəki rolu, Bakı Dövlət Universiteti, (2012) səh. 431-435, Bakı.

3.Hüseyni S.S., Moxnəfi B. Turistlərə bələdçilik sahəsində söz əlaqə yaratma bacarığı və fəndləri, Gəşt o Gozar beynəlxalq jurnalı, (2012), VII il, № 41, səh. 46-47, Məşhəd, İran.

4.Hüseyni S.S., Hüseyni Z. Ömür boyu təlimin əhəmiyyəti və onun qloballaşma dövründə informasiya savadlılıqla sıx əlaqəsı, Tehran (2012),

5.Hüseyni S.S. The role of nonverbal communication skills in guiding tourists, Global advanced research journal of management and business studies, (2012), ISSN 2315-5086. səh.253-258. http://gari.org /garjmbs/index.htm

6.Hüseyni S.S. Niknam K. Turizm Sənayesi Mühəqqiq Ərdəbili nəşriyyatı (2010),

7.Hüseyni S.S. Ərdəbil vilayətində köçəri turizm mənzərələri, Dilmac jurnalı, (2005), №15. səh.42-51

8.Hüseyni S.S., Mahmudi N. Örnək turizm zonalarının yaradılması turizm sənayesinin inkişafında yeni bir metoddur. Sərbəst ticarət zonaları ixtisaslı jurnalı, 2007 №184, səh. 50-51

9.Hüseyni S.S., Mahmudi N. Turizm sənayesinin inkişafında örnək turizm zonalarının səmərəli rolu, Ekoturizm ixtisas jurnalı, (2009), II il, № 5, səh. 10-18.

10.Hüseyni S.S., Mahmudi N. İnsan resurslarının təliminin sağlamlıq turizm xidmətləri keyfiyyətinin yaxşılaşdırılmasındakı rolu, Təbrizdə (2011).

11.Hüseyni S.S., Mahmudi N. Nir rayonunun sağlamlıq turizm potensialları, proqramlar və yollar, Təbriz (2011).

12. Гусейни С.С.И. Особенности развития туристической индустрии в Исламской Республике Иран и использование кадрового потенциала// Экономика Крыма.- №2012.-№4(41).- С.128-132.

**Seyid Sadig Huseyni Ibrahim**

# Economic and geographical issues relevant to providing information and guides in the tourism industry of the Islamic Republic of Iran

Tourism industry in the Islamic Republic of Iran has high natural, historical and cultural potentials. The unique geographical position, four-season climate, great historical monuments, the diversity of customs and traditions, subcultures in addition to social and economic factors such as young and educated population, relatively high unemployment rate, unipolar economy and dependency on oil and so many other cases, made tourism industry enjoy appropriate position in Iran's macro development programs. Given the promising future of tourism industry and the outstanding position of tour guides in developing this industry, we introduced this business and also mechanisms governing their behavior and performance through three chapters included in this thesis.

In chapter one, regarding the role of tour guides in developing tourism industry, we studied and evaluated the basic concepts of tour guides' affair. Then, the techniques and skills required for guiding tourists, the government's and the private sector's role in supplying and training tour guides and their structural establishments, the impact of training in expansion and development of human recourses employed in the tourism industry and the role of information and communications technology in guiding tour were examined.

Because of practical importance of this job in our country, and regarding the role of tour guides in introducing Iran's tourism attractions and capabilities, in second chapter, the present status of supplying and training tour guides, the economic and geographical factors influencing this issue and developing programs for tour guides' affair in Iran's tourism industry were examined.

In third chapter, the prospects and programs for developing tour guides' affair included in development programs of tourism industry of the Islamic Republic of Iran and also their strengths and weaknesses were assessed, then the necessary strategies for training professional tour guides in order to give appropriate services to customers with the aim of achieving to an efficient and coordinated scientific structure in local, national, and international levels were investigated and studied too.

**Сеид Садиг Ибрагим оглы Гусейни**

**Экономико-географические вопросы работы путеводной и информационного обеспечения туристической индустрии ИР Иран**

Диссертация **посвящена** изучению организации работы в туристической индустрии, обеспечению туристических компаний путеводителями, вопросам их подготовки, повышения квалификации, оказания местным и иностранным туристам услуг высокого уровня, а также информационным обеспечением о туристических центрах и принимающих странах.

**Целью** данной диссертации является определение основных направлений рациональной организации функционирования туроператоров, анализу и совершенствованию их подготовки, обеспечение туристических групп путеводителями и необходимой информацией и информационными системами.

**Научной новизной** данной диссертации являются: обоснование развития туризма и оказании туристических услуг, а также информационного обеспечения туристов; определение основных направлений формирований этой работы; обоснование подготовки туроператоров, обеспечение их работой, информацией и коммуникационной технологией; изучение и анализ Государственной Программы по развитию путеводной работы в туристической индустрии.

Работа состоит из введения, четырех глав, выводов, рекомендаций и списка использованной литературы.

**Первая глава** диссертации посвящена анализу теоретических и методологических основ изучения направлений в туристической индустрии, роли основных государственных и неправительственных организаций в этой области, использованию новых информационных и коммуникационных технологий в работе туроператоров.

**Во второй главе** исследуется современное состояние основных направлений их подготовка и повышение квалификации роли ГП в этой области.

**В третьей главе** изучается перспективы развития обеспечения туристических компаний путеводителями и основными проблемами в этой сфере.

По теме диссертационной работы опубликовано 14 научных статей.

Каьыз форматы- 60х84  16/1, 1,6 ч.в.
Тираж -100
АМЕА-нын мятбяясиндя чап олунмушдур

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ГЕОГРАФИИ им. акад. Г.А. АЛИЕВА**

*На правах рукописи*

**СЕИД САДИГ ИБРАГИМ ОГЛЫ ГУСЕЙНИ**

# ЗАДАЧИ ЭКОНОМИКО-ГЕОГРАФИЧЕСКОГО НАПРАВЛЕНИЯ И ИНФОРМАЦИОННОГО ОБЕСПЕЧЕНИЯ ТУРИСТИЧЕСКОЙ ИНДУСТРИИ ИР ИРАН

5401.01 – Экономическая география

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по географическим наукам

**БАКУ - 2013**